**Emil Hacızadə**
**Magistrant**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**E-mail:** emilhaciyev42@gmail.com

## "Nəsimi" filmində dahi Azərbaycan şairi Nəsiminin obrazı

**Xülasə:** Film hürufiliyin nəzəri əsasını qoyan Fəzlullahdan bəri XIV əsrdəki hadisələri, öz zamanını çox erkən qarşılamış, dərin zəka sahibi, istedadlı Azərbaycan şairi və filosofu İmadəddin Nəsimi dövrünün bir parçasını əhatə edir. Bu məqalədə şair Nəsimidən, onun kinodakı obrazına gedən yolu təhlil edəcəyik.

**Açar sözlər:** Nəsimi, poeziya, hürufilik, Azərbaycan kinosu, həqiqət aləmi.

İnsan həyatının özü kamilləşmə prosesidir. Dünyanı dərk edən insan əsl yaradıcıdır.

Düz 46 il əvvəl böyük Nəsiminin həyatından bəhs edən "Nəsimi" filmi ekranlarlaşdırıldı. Bu film milli kino tariximizin çox qiymətli nümunələrindən olmaqla yanaşı, həm də tarixi-bioqrafik mövzuda çəkilmiş ən dəyərli əsərlərindəndir. 1974-cü ildə film ekranlara çıxan zaman kinoteatrlarımızda əsl bayram ovqatı yaratmışdı.

Ssenaristlə rejissorun iş birliyi son dərəcə vacib şərt olsa da, filmin müvəffəqiyyəti baş rolu ifa edən aktyordan da aslıdır. Böyük şairin poetik obrazını tarixi hadisələr fonunda, real cizgilərlə əks etdirmək kimi problem qarşısında qalan rejissor ilk növbədə bu rolun ifaçısını müəyyənləşdirdi.

Film çoxplanlı ekran əsəridir. Yazıçı İsa Hüseynovun ssenarisi üzərində uzunmüddətli yaradıcılıq işi aparan rejissor ətrafına peşəkar işgüzar yaradıcı kollektiv toplaya bildi. İstedadlı kinooperator Rasim İsmayılov, rəssamlar Məmməd Hüseynov, Mais Ağabəyov, bəstəkar Tofiq Quliyev, səs operatoru Akif Nuriyev film üzərində birgə səylə çalışdılar. Bu filmdə hamı böyük həvəslə çalışırdı və yaradıcı kollektiv də, studiyanın rəhbərliyi də filmin uğurlu alınması üçün əllərindən gələni edirdilər.

Filmdə real insan məhəbbəti, insan gözəlliyinin tərənnümü xüsusu yer tutur. Bütün bunlar filmin dinamik epizodlarında göstərilir.

Rasim Balayev yaratdığı Nəsimi obrazı kinomuzda analoqu olmayan ekran qəhrəmanıdır. Nəsimi – tarixinin çox ağır, çox çətin dövründə insanlara həqiqət yolu göstərən öz sənətkar borcunu şərəflə, həyatı bahasına yerinə yetirən şair-mütəfəkkir olmuşdur. Filmdə Rasim Balayev onun poeziyasına və

fəlsəfəsinə, tarixi hünərinə layiq bir obraz yaratmışdır. Rasim Balayevin bu rolu alması təsadüfi olan bir hadisə idi. Mərhum aktyor Müxlis Cənizadə günlərin bir günü onun yanına iş üçün gəlmiş tələbəsinin qolundan tutub "Azərbaycan" kinostudiyasına gətirməsəydi, Nəsimi filminin taleyi başqa cür olardı.

Həsən Seyidbəyli qədər heç kim inanmazdı ki, Şərqin dahi filosofu, şairi, kamillik əqidəsi naminə canından keçmiş böyük İmaməddin Nəsiminin obrazını ilk baxışdan o qədər də diqqəti cəlb etməyən bir gənc, sıravi oğlan yarada biləcək. Rasim Balayevin Nəsimi filminə çəkilməsinin səbəbi aktyorun özünə xas naməlum, izaholunmaz, hətta sehrli xüsusiyyəti olmuşdur.

"Nəsimi" filminin çəkilişləri qurtarandan sonra Həsən Seyidbəyli bütün müsahibələrində Rasim Balayevin oyununu analiz edərkən, yüksək mənəvi keyfiyyətlərə, zəngin daxili aləmə malik olduğunu qeyd etməklə yanaşı, zahiri əlamətləri haqqında çəkinmədən ürəkdolusu danışırdı. Hətta sonralar belə bir fikir yayılmağa başladı ki, bəlkə də Rasim Balayev olmasaydı "Nəsimi" filmi bu qədər məşhurlaşmazdı. "Nəsimi" filminə istər Moskvada, Leninqradda, Kiyevdə, Tbilisidə, Daşkənd və başqa bir sıra xarici ölkələrdə, bir sözlə harada baxırdılarsa, ilk növbədə Rasim Balayevin cazibadarlığından, yaratdığı obrazın təkrarolunmazlığından danışırdılar.

Hürufiliyin atası Nəimi dardadır. Bir azdan qəddar Teymurləngin cəlladları tərəfindən ona işgəncə veriləcək. Fəzlin sevimli şagirdi İmadəddin Nəsimi qəfəsə salınmış quş kimi çırpınır, həyəcandan onun gözləri yaşarıb. Ustada necə kömək etməli? Amansız fatehin əlindən onu necə qurtarmalı? Təssüf ki, bu vəziyyətdən heç bir çıxış yolu yoxdur. Nəsimi bunu anlayır və müqavimətin yersiz olduğunu dərk edir, lakin o, tamamilə mübarizədən çəkilmək fikrində də deyil və son anda ustadına sadiq qalaraq bütün varlığı ilə haray çəkirdi: "Ey musəlmanlar, bu gün ol yari pünhan ayrılır! Ağlamayım neyləyim, çün gövdədən can ayrılır!" Bu misralarda Nəsimi "gövdədən can ayrılır" dedikdə gövdə, bədən olaraq hürufiliyi, can dedikdə isə gövdədən, bədəndən ayrı düşən canı, yəni Nəimini nəzərdə tutur. İdeyasından cismən ayrı düşən Nəiminin ruhu Nəsimidə idi.

Nəsiminin – Rasim Balayevin tükürpədici, insanları haqqa səsləyən naləsi ucalır. Şairin harayı ekrandan zala yayılır. Bu haray ağrının, əzabın, kədərin, vicdanın harayıdır.

Nəsimi Teymurla "kamil – cahil insan" mövzusunda apardığı mübahisəni əks etdirən başqa bir epizodda da eynən Rasimin peşə ustalığı ilə tanış oluruq. Nəsiminin sifətindəki dəyanət, gözlərinə toplanmış kamillik kədəri, vüqarlı baxışları, qürurlu səsi, hətta qəddar Teymurləngi belə təsirləndirir və o, şairin qollarını açıb azad edir. Bu epizoda baxanları Rasimin aktyor məharəti, aktyor ötkəmliyi situasiyanın mümkünlüyünə inandırır. Göründüyü kimi, Rasim Balayev təkcə təbiətən malik olduğu zahiri görünüş effektləri ilə kifayətlənmir,

yaratdığı obrazın daxilinə daha dərin nüfuz etməyə, onu daha maraqlı ştrixlər, detallarla zənginləşdirməyə səy göstərir. Forma və məzmun vəhdəti obraza yaşamaq hüququ verir.

Nəsimi rolu az zamanda Rasim Balayevi məşhurlaşdırdı. Elə bil tamaşaçılar uzun illərdən bəri belə bir kino qəhrəmanının gəlməsini, ürəklərdəki boşluqları, sənət "aclığının" doldurmasını, mənəvi ehtiyacları təmin etməsini gözləyirdilər. Rasim Balayev bir-birinin ardınca VII Ümumittifaq Kinofestivalında ən yaxşı kişi rolu üçün ikinci mükafat, Respublika Lenin Komsomolu mükafatı, Əməkdar artist fəxri adını aldı. Artıq bu şöhrət yağışından sonra ekranda duruş gətirmək və milyonların "sevimlisi" olmuş bir aktyor ömrü yaşamaq o qədər də asan deyildi.

Rasim Balayev deyir: "Mərhum kinorejissor Həsən Seyidbəylinin və yazıçı İsa Hüseynovun ssenarisi əsasında çəkilən "Nəsimi" filmi mənə sənət vəsiqəsi verdi. Azərbaycan poeziyasında ümumbəşəri əhəmiyyətə malik incilər bəxş etmiş böyük İmadəddin Nəsiminin obrazını ekranda canlandırmağa çalışdığım bu film, gələcəkdə nə kimi rollarda çəkiləcəyimdən asılı olmayaraq, mənim sənət yaradıcılığımda böyük bir məktəb olaraq qaldı".

"Nəsimi" filmi tarixi xronika deyil, müəlliflər tarixi fakt və hadisələrə istinad edərək, müsir kino sənətinin tələblərinə cavab verən müstəqil əsər yaratmışlar. Şair və filosof Nəsiminin obrazı vasitəsilə çatdırılan bədii fikir bizə yaxın və doğmadır. Çünki bu gün də bütün dünya miqyasında insanın ideya uğrunda mübarizəsi, onun tarixi rolu barədə ciddi mübahisələr gedir: insan haqqında müxtəlif fəlsəfi-estetik konsepsiyalar mövcuddur. O, insan şəxsiyyətini, idrakını və zəkasını Allah səviyyəsinə qaldırıb, özünütəsdiq yolunda mübarizəyə çağırır. Kino sənətinin qanunauyğunluğuna əsaslanan rejissor bədii şərtilikdən, metaforadan geniş istifadə etmişdir.

## Ədəbiyyat:


1. Seyidbəyli H. "Nəsimi"dən başlayan səhifə. "Bakı" qəzeti. 1974, 13 noyabr
2. "Nəsimi" filmi xaricdə gedir. "Bakı" qəzeti. 1974, 11 may
3. "Kino yenilikləri" qəzeti. 11 yanvar 1974-cü il.
4. C. Məmmədov. "Coşqun ilham". "Kommunist" qəzeti. 3 yanvar 1981-ci il.
5. E.Quliyev, C.Mirzəliyev. Rasim Balayev. Bakı: 1999, səh. 16.
6. Xamis Muradov. Kinofabrikdən başlanan yol. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası. Aydın Kazımzadə. Bizim "Azərbaycanfilm". 1923-2003-cü illər. Bakı: Mütərcim, 2004.- səh. 4.
7. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası. Aydın Kazımzadə. Bizim

"Azərbaycanfilm". 1923-2003-cü illər. Bakı: Mütərcim, 2004.- səh. 143; 180; 196-198; 258.
8. Азербайджанской ССР кинематография. Кино: Энциклопедический словарь / Гл. ред. С. И. Юткевич; Редкол.: Ю. С. Афанасьев, В. Е. Баскаков, И. В. Вайсфельд и др. — Москва: Советская энциклопедия, 1987. — стр. 13.
9. Кино: Энциклопедический словарь / Гл. ред. С. И. Юткевич; Редкол.: Ю. С. Афанасьев, В. Е. Баскаков, И. В. Вайсфельд и др. — Москва: Советская энциклопедия, 1987. — стр. 34; 154; 269; 383.
10. "Nəsimi" (film, 1973) // Vikipediya, azad ensiklopediya. URL: https://az.wikipedia.org/wiki/N%C9%99simi_(film,_1973) müraciət tarixi: 06.12.2019

## Образ гениального азербайджанского поэта Насими в фильме "Насими"

### Резюме

Фильм охватывает события 16 века времён Фазлуллаха, заложившего теоретические основы хуруфизма и период из жизни глубоко мыслящего, талантливого азербайджанского поэта и философа Имадеддина Насими. В этой статье мы проанализируем путь от поэта Насими к его образу в кино.

**Key words:** Насими, хуруфизм, азербайджанские фильмы.

## The great Azerbaijani poet in the film "Nasimi" the image of Nasimi

**Abstract.** The film covers the period (phase) from the time of Fazlullah who founded the Hurufism including events dealing with the XIV century, up to a talanted, great thinker, novator poet of Azerbaijan Imadeddin Nasimi. In this article the transition from poet Nasimi to his acting will be discussed.

**Key words:** Nasimi, poetry, Hurufism, Cinema of Azerbaijan.